*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.399-403*

https://doi.org/10.62837/2025.4.399

**KAMALƏ İSLAMOVA**
**Bakı Avrasiya Universiteti**
**zeynallikemale58@gmail.com**
**ORCHID İD:** https://orcid.org/0009-0008-4029-5292

# FƏXRİ UĞURLUNUN "LEYLİNİN MƏCNUNLUĞU" HEKAYƏSİNDƏ LEYLİ VƏ MƏCNUN OBRAZLARININ İNTERPRETASİYASI

**Xülasə**

Məqalədə Fəxri Uğurlunun "Leylinin Məcnunluğu" hekayəsində Leyli və Məcnun obrazlarının interpretasiyası kontekstində tədqiq edilmişdir. Yazıçı ilk dəfə yazılı ədəbiyyata Nizami Gəncəvi tərəfindən gətirilən məşhur sevgi dastanı olan "Leyli və Məcnun" poemasının motiv və obrazları işığında müasir bədii əsərini qələmə almışdır. Fəxri Uğurlu hekayəni yazarkən, poemdakı hadisələri olduğu kimi şərh etmir, klassik əsəri bitdiyi yerdən yenidən yazır.
**Açar sözlər:** Nizami Gəncəvi, Fəxri Uğurlu, Leyli, Məcnun, "Leylinin Məcnunluğu", klassik irs, hekayə

Çağdaş dövr Azərbaycan ədəbiyyatı klassik irsə qırılmaz tellərlə bağlıdır. Bu əlaqə klassik irslə çağdaş düşüncə arasında körpü yaradaraq yazıçıların klassik əsərlərə müraciətini şərtləndirir. Müasir Azərbaycan ədəbiyyatında da yazıçılar öz əsərlərində klassik mövzulara, obraz və motivlərə müraciət edərək onları yenidən şərh edir, yeni məna qatları ilə zənginləşdirirlər. Belə yazıçılardan biri də Fəxri Uğurludur. Ədəbi fəaliyyətə 1990-cı illərdən başlayan ədibin yaradıcılıq irsinin əsas hissəsini hekayə janrı təşkil etsə də, müxtəlif zamanlarda yazdığı povest və esselərində də insan xarakterinin və onun daxili dünyasının dərinliklərini təsvir etmişdir.

Şərq poeziyasında əvəzolunmaz yerə sahib Nizami Gəncəvi yaradıcılığının zəngin ideya-məzmunu və bədii-estetik dəyərləri ilə yalnız öz dövrü üçün deyil, ədəbiyyat tarixinin bütün mərhələlərində sənətkarlar üçün mənbə rolunu oynamış, "Xəmsə"si əsrlər boyu müxtəlif ixtisarlar və əlavələrlə təkrar-təkrar işlənmişdir. Fəxri Uğurlu da dahi sənətkarın "Xəmsə"sindəki arxetipik motiv və obrazları dekonstruksiya edərək "Leylinin Məcnunluğu", "Fərhadın Xosrovu öldürməsi" və "İsgəndərin qanunu" hekayələrini qələmə almışdır. Yazıçı adı çəkilən hekayələrində klassik qəhrəmanları çağdaş insanın düşüncə və dəyərləri fonunda yenidən şərh edir.

Təhlilə cəlb etdiyimiz "Leylinin Məcnunluğu" hekayəsi klassik "Leyli və Məcnun" poemasındakı süjet xəttinə əsaslanmır. Hekayə Qeysin nəzir-niyazdan sonra dünyaya gəlməsi, Məcnunun Leyliyə elçi göndərməsi və Leylinin atasının bu

izdivaca yox cavabı verməsi və digər hadisələr fonunda təsvir olunmur. Hekayənin poemadan əsas fərqlərindən biri, Leylinin artıq ailəli və uşaqlı qadın kimi təqdim olunmasıdır.

F. Uğurlunun "Leylinin Məcnunluğu" hekayəsindəki mühit hələ də Məcnunu dərk edəcək səviyyədə olmayıb, onun səhrada heyvanlarla yaşamasını məsxərə salıb gülürlər: "Məcnun hər gün obaşdan durub əl-üzünü yuyandan, nahar eləyəndən sonra anasının boxçadan çıxartdığı təmizlik qoxuyan geyim-keçimlə əynini təzələyib heybəsi çiynində çölə işləməyə gedirdi. Obanın arvadları örüşə gedən naxıra mal qoşurmuş kimi onun yoluna çıxıb süfrələrinin axşamdan qalma artıq-urtuğuyla, sür-sümüklə dolu bağlamanı Məcnunun heybəsinə yükləyirdilər.

– Yenə işə gedirsən, ay Məcnun? – gülə-gülə deyirdilər.

– İşə gedirəm, – Məcnunun dodağı da qaçmırdı" [5, s. 53]

Məcnunun içindəki hissləri nə yaşadığı mühit, nə ata-anası, nə də dostları anlaya bilmirlər. Onun eşqini dərk etməyib bəlaya düçar olduğunu düşünən atası molla və baxıcılardan oğlunun dərdinə əlac tapmayanda, bir dərvişin məsləhəti ilə oğlunu müqəddəs torpaqlara aparmaq qərarına gəlir: "O dərdi, o sevgini onun canından olsa-olsa müqəddəslərin eşqi çıxarar. Oğlunu Kəbəyə apar" [5, s. 58].

İlahi kamilliyə qovuşan Məcnun müqəddəs torpaqları ziyarət edən zəvvarlara: "Ey müsəlmanlar, oyanın bu qəflətdən, – demişdi, – başına dolandığınız bu qara daş bir zaman fəzada canlı-canlı dolaşıb macəralar yaşamış bir səyyarənin ölüsüdü, – demişdi, – sonra o daş fəzada alışıb-yanıb göydən yerə düşmüşdü, indi siz o daşın özünə yox, cəsədinə sitayiş eləyirsiz, ey müsəlmanlar, – demişdi, – kafir, bütpərəst kimi ölüyə tapınmaq sizə yaraşarmı? Gedək bizim ellərə, mənim çölümə, nə qədər istəsəniz diri daş göstərim sizə! Gedək mənim ağaclarıma, kollarıma tapının, aslanlarımı, ceyranlarımı ziyarət eləyin, – demişdi, – göydən soraq gətirən quşlarımı, yer altından xəbər verən qarışqalarımı sitayişə gəlin!" deməklə insanlara Allahın təcəllasının onun yaratdıqlarında olduğunu dərk etməyə çağırır [5, s. 58]

Qeysin nakam məhəbbəti labüdddur və əsil vəslət vücudi-küllə qovuşmaqdır. Leyli isə bu qovuşmada ona vasitədir və onun varlığı Məcnunun eşqdə kamala çatmasına vəsilədir. Bu yolla Məcnun zamanla dünyəvi eşqdən ayrılaraq ilahi hikmətə qovuşur [3, s. 142]. İlahi həqiqətləri anlamaq daxili duyğularla dərk etməyə əsaslanır. Bu yanaşma insanın öz daxili aləmini dərk edərək ilahi hikmətə yanaşmasıdır. "Leyli və Məcnun"da da Leyli Məcnunun daxilindədir. "Leyliyi-həqiqi" ilə əbədi vəhdətdə olan Məcnunun zahiri Leylinin vüsalına ehtiyac yoxdur. Məcnun Leyli ilə onu ayıran başlıca maneəni cismani istəklərini aradan götürmüşdür [4, s. 138]. Hekayədə isə Məcnun artıq bütün varlığı ilə ilahi kamillik zirvəsinə çatıb. Poemadan fərqli olaraq hekayədə, Leylinin maddi aləmdən mənəvi aləmə keçməsinə və ilahi hikmətə qovuşmasında vasitəçi Məcnundur.

"Leyli və Məcnun" poemasında Məcnun səhraya çəkildikdən sonra uzun müddət onun ilahi hikmətə qovuşmasında vasitəçi olan sevdiyinə qovuşmaq ümidi

ilə yaşayır, həsrət və intizar içində Leylini düşünür [2, s. 175]. Hekayədə Məcnunla Leylini qovuşdurmağa çalışan obrazlar olsa da, Məcnun onlara qarşı çıxır. Onları qovuşdurmağa çalışan Nofələ: "Sənsən aramıza girən, çöllər sultanı, – Leylinin yerinə Məcnun dinmişdi, – sənin yaxşılığın kəsir qarşımızı. Mənim gövdəmə calamaq istədiyin bu əti-sümüyü məndən kimsə əsirgəmirdi. Sənin ədalətinə burda kimsə kəm baxmayıb. Ancaq təkcə ədalət azdı, çöllər sultanı. Sənin ədalətin ceyranı aslanın pəncəsindən qurtarar, di gəl, aslanı acından öldürər. Bilmək istəyirdim görüm, doğrudanmı Leylini mənə qaytara bilərsən? Yox, çöllər sultanı, dünyada ədalət yaratmaq üçün təkcə ədalətli olmaq azdı" deyir [5, s. 62].

"Leylinin Məcnunluğu" hekayəsinin digər qəhrəmanı Leylidir. Leyli poemada ailə və cəmiyyətin hökmünə boyun əysə də, müasir hekayədə bu stereotipdən qismən uzaqlaşır. Hər iki əsərdə Leyli İbn Səlam və ya Salamın oğlu ilə evlənir. Poemada İbn Səlamla Leylinin tanışlığı təsadüfi baş verir və bu tanışlıqdan sonra atası bilə-bilə qızını sevmədiyi cavanla evləndirir. Leyli evləndikdən sonra da Məcnunun sevgisini qəlbində daşıyır, ərinin ona toxunmasına icazə vermir. İbn Səlam ölənə qədər Məcnuna yaxın getmir, hətta sevgilisini axtardığı zaman onunla üzbəüz dayanmır. Uzaqdan oturub yalnız qəzəllərini dinləyir, təsəlli tapır. Əri öləndən sonra onunla görüşür [1, s. 236].

F. Uğurlunun hekayəsində isə Salamın oğlu və Leyli qohumdur. O, əmisi oğlu Salamın oğlu ilə evləndikdən sonra Məcnunun görüşünə istədiyi vaxt gedə bilir. Salamın oğlu eyni zamanda, Məcnunun sinif yoldaşı idi. Lakin o, çıxılmaz vəziyyətdə olduğu üçün qəbul etdiyi bu evliliyi dostuna qarşı etdiyi səhv kimi qəlbində əzaba çevirir və dostunun əmanətinə sadiq qalacağını söyləyir: "Bu nikaha nəslimizi qınaqdan qurtarmaq üçün qol qoyduğumu bilirsən. Mən dostumu başa düşdüyüm kimi o da məni anlayar. Nə qədər sağam, onun başından bir tük əskilməyəcək. Mən Məcnunun yolunu ölüncə saxlayacam, onun müqəddəsliyinə heç vaxt şəkk gətirməyəcəm. İstəməzsən, sənə barmağım da dəyməz, əmim qızı olsan da, səni Məcnunun əmanəti kimi saxlayaram" [5, s. 64].

İlk zamanlarda Leylinin Məcnunun yanına səhraya getməsi insanlar arasında xoş qarşılanmasa da, Salamın oğlunun dediklərindən sonra heç kimi onu qınamırdı: "Məcnun övliyadı, ondan bizim kimi pozğunlara ortaq olmaz, – demişdi. – Mənim arvadım da onun yanına oynaşlığa yox, ziyarətə gedir!.." [5, s. 64]. Əslində, Leyli hər dəfə səhraya poemadakı kimi, Məcnunu görmək istəyi ilə getmirdi, onun əsas niyyəti özünü tapmaq, mənəvi bütövlüyünü dərk etmək idi. Leyli varlığını Məcnunda tapmışdı, özünü onun sevgisində dərk edə bilirdi. Leylinin "özünü tapmaq" arzusunda Yunqun "öz" (self) arxetipini görmək olar. Yunqun arxetiplər nəzəriyyəsinə əsasən, "öz" (self) arxetipi fərdin daxili dünyasını və şüuraltını dərk etməsidir. Bu arxetipə görə, insanın tam şəkildə özünü dərk etməsi onun bütövləşmə prosesidir.

"Leyli və Məcnun" motivi əsasında yazılmış əsərlərin çoxunda Leyli və Məcnunun qovuşması mümkün olmadığı kimi, hekayədə də bu qovuşma baş tutmur. Zeyd dostunu anlamadığı kimi, gətirdiyi çıldaqçı Məcnunun ölümünə səbəb olur. Məcnunun ölümü ilə onun ilahi eşq yolculuğu tamamlanır və o, "fəna" ya nail olur və bununla da "məcnunluq" ruhanı miras kimi Leyliyə keçir.

## ƏDƏBİYYAT:

1. Araslı, H. Böyük Azərbaycan şairi Füzuli. / Bakı: Elm, – 2024, – 352 s.
2. Əlimirzəyev, X. Nizami Gəncəvinin insan konsepsiyası. / Bakı: Gənclik, – 2001, – 354 s.
3. İbrahimov, S. Orta əsrlər Azərbaycan romantik ədəbiyyatı. / Bakı: MBM, – 2014. – 303 s.
4. Məmmədli, N. Füzulinin "Leyli və Məcnun" əsərində təsəvvüf və onun bədii ifadə sistemi. / Bakı: Elm və təhsil, – 2011, – 184 s.
5. Uğurlu, F. Hekayələr. / Bakı: Əli və Nino, – 2010. – 327 s.

**КАМАЛА ИСЛАМОВА**

## ИНТЕРПРЕТАЦИЯ ОБРАЗОВ ЛЕЙЛИ И МЕДЖНУНА В РАССКАЗЕ «БЕЗУМИЕ ЛЕЙЛИН» ФАХРИ УГУРЛУНА

## РЕЗЮМЕ

В статье рассматривается контекст интерпретации образов Лейли и Меджнуна в повести Фахри Угурлу «Меджнун Лейли». Свое современное художественное произведение писатель написал с учетом мотивов и образов поэмы «Лейли и Меджнун» — знаменитого любовного эпоса, впервые введенного в письменную литературу Низами Гянджеви. При написании рассказа Фахри Угурлу не интерпретирует события поэмы такими, какие они есть, а переписывает классическое произведение с того места, где оно закончилось.

**Ключевые слова: Низами Гянджеви, Фахри Угурлу, Лейли, Меджнун, «Меджнун Лейли», классическое наследие, рассказ**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.399-403*

**KAMALA ISLAMOVA**

## INTERPRETATION OF THE IMAGES OF LEYLI AND MAJNUN IN THE STORY “LEYLI’S MADNESS” BY FAKHRI UGURLUN

**SUMMARY**

The article examines the interpretation of the images of Leyli and Majnun in Fakhri Ugurlu's story "Leyli's Majnun". The writer wrote his modern work of fiction in the light of the motifs and images of the poem "Leyli and Majnun", a famous love epic first introduced into written literature by Nizami Ganjavi. While writing the story, Fakhri Ugurlu does not interpret the events in the poem as they are, but rewrites the classic work from where it ended.

**Keywords: Nizami Ganjavi, Fakhri Ugurlu, Leyli, Majnun, "Leyli's Majnun", classical heritage, story**

**Rəyçi: filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy**